

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (21.830)

8 sentyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bütün digər sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq həyata keçirilir.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nərimanov rayonunda əsaslı təmir edilən 212 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.



İcmal

## Naxçıvan: maddi dəyərlərin insan kapitalına çevrildiyi məkan, inkişaf və tərəqqi ünvanı

### Ötən ayın nəticələri də belə deməyə əsas verir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev daim xalqımızın güvənc yeri olub. Dahi şəxsiyyət muxtar respublikamızın ən çətin günlərində – 1990-cı il iyul ayının 22-də Naxçıvana gəlib, naxçıvanlılar Onu, O da Naxçıvanı qoruyub. Həmin il 340 nömrəli Nehrəm Seçki Dairəsindən ulu öndərin Azərbaycan SSR Xalq deputatlığına namizədliyi irəli sürülüb. Görkəmli dövlət xadimi Nehrəmə gələrək burada seçiciləri ilə görüşüb. Onun seçicilərlə görüşdüyü həmin ünvan bu gün Nehrəmdə müqəddəs bir yer sayılır. Bu ünvanda Heydər Əliyev Parkı salınıb, ümummilli liderin yüksəklərə qaldırdığı Azərbaycan bayrağı parkın mərkəzində ucaldılıb. Avqustun 5-də Nehrəm kəndində Heydər Parkı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Nehrəm kəndində Heydər Parkının istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək deyib: ***"Son illər Nehrəm kəndində geniş quruculuq işləri aparılmış, yeni məktəb binaları, musiqi məktəbi, rahat yol, xəstəxana tikilmiş, içməli su və kanalizasiya xətti çəkilmiş, rabitə və elektrik xətləri yenilənərək sakinlərin istifadəsinə verilmişdir. Bu gün açılışı olan Heydər Parkı da kənddə həyata keçirilən quruculuq tədbirlərinin davamıdır. Müasir sosial obyektlər və yaradılan infrastruktur imkan verir ki, Nehrəm kəndi daha da inkişaf etsin. Bütün bunlar isə insanlarda dövlətə inamı yaradır, onların rahat yaşayışına xidmət edir. Heydər Parkında istirahət edənlər də 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Nehrəm kənd sakinləri ilə görüşlərini xatırlayacaq, o çətin və tarixi günləri bir daha yada salacaqlar".***

Həmin gün Ali Məclisin Sədri Babək rayonunun Nehrəm kəndində yaradılan üzümçülük təsərrüfatına baxıb, aqrar sahənin inkişafında rentabelli işləyən təsərrüfatların yaradılmasının əhəmiyyətini vurğulayıb, bu təsərrüfatın yaradılmasında əməyi olanlara təşəkkür edib, müvafiq tapşırıq və tövsiyələrini verib.

Bu gün muxtar respublikanın yaşayış məntəqələrində müasir infrastruktur yaradılır, rayon mərkəzləri ilə dağ kəndlərini, eləcə də paytaxt Naxçıvan şəhəri ilə ətraf kəndləri birləşdirən avtomobil yolları yenilənir, kənd yaşayış məntəqələrində içməli su və kanalizasiya şəbəkələri qurulur.

Avqustun 18-də Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhəri ilə birləşdirən avtomobil yolu, eyni zamanda həmin yaşayış məntəqələrində yeni içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirlərdə iştirak edib.

Cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsi olan təhsil intellektual potensialı formalaşdırır, hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır, vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir, milli və mənəvi dəyərləri qoruyur və tənzimləyir, insan kapitalını formalaşdırır. Sevindirici haldır ki, bu işlər Naxçıvanda diqqət mərkəzində saxlanılır. Yaradılan şərait isə öz bəhrələrini verməkdədir. Belə ki, 2017-ci ildə ümumtəhsil məktəblərini 2 min 758 məzun bitirib. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2 min 331 nəfər olub. Bu isə,



ümumilikdə, məktəbi bitirən məzunların 78,4 faizi deməkdir. Məzunlardan 151-i xüsusi təyinatlı ali məktəblərə, ümumi orta təhsil bazasından isə 1150 məzun orta ixtisas məktəblərinə qəbul üçün sənəd verib. Qəbul imtahanlarında məzunlar yüksək nəticələr göstərən məktəblərin sayı 108-ə çatıb.

Avqustun 21-də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilib.

Tələbələrlə görüşdə ali məktəblərə qəbul imtahanlarında 500-700 intervalında bal toplayaraq tələbə adını qazanmış məzunlara pul mükafatı ilə yanaşı, "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" kitabı təqdim olunub. Bu isə milli tariximizin bütün dövr və mərhələlərini yüksək peşəkarlıqla qiymətləndirən, ötən əsrlərdə baş vermiş ictimai-siyasi proseslər barədə obyektiv mülahizələr səsləndirən və gələcək inkişaf yolumuzu müəyyənləşdirən dahi şəxsiyyətin irsinə sədaqətin böyüklüyünü gənclərin diqqətinə çatdırmaq baxımından əhəmiyyətlidir.

Bir millətin əsrlər boyu yaşadığı, adətinin, ənənəsinin, varlığının, milli şüurunun, birliyinin dəyişməz ünvanı olan Vətən təkcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən sonsuz sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Çünki elimiz, obamız bu torpaqlardadır. Əcdadlarımız bu torpaqlarda uyuyurlar. Onlar bu torpaqlarda yaşayıb, onu canları, qanları bahasına qoruyub, şəhidlik zirvəsinə ucalıblar, ancaq həmişə Vətən sərhədlərinin toxunulmazlığını təmin ediblər. Məhz ona görə də milli atributumuz olan sərhədlərimiz müstəqil dövlətimiz üçün müqəddəsdir. Ali Məclis Sədrinin dediyi kimi: ***"Sərhəd dövlətimiz üçün müqəddəsdirsə, sərhədçi olmaq, sərhədləri qorumaq isə şərəfli işdir".***

1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyi elan olunan gündən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sərhədlərin milli sərhəd qüvvələri tərəfindən qorunması zərurəti yaranıb. Həmin vaxt Sovetlər Birliyinin Naxçıvandakı sərhədlərində 41-ci Sərhəd Dəstəsi dayanmışdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları Ermənistan ərazisindəki sərhəd dəstəsinin tabeliyində idi. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər Heydər Əliyevin səyi ilə həmin sərhəd zastavaları Naxçıvandakı 41-ci Sərhəd Dəstəsinin tabeliyinə verilib. Mühüm siyasi və tarixi əhəmiyyət daşıyan bu addım muxtar respublikanın sərhədlərinin etibarlı müdafiəsini və milli sərhəd dəstəsinin yaradılmasını şərtləndirib. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində ulu öndərin rəhbərliyi ilə ilk dəfə Azərbaycanın üçrəngli bayrağı qaldırılıb və ölkəmizin ilk milli sərhəd dəstəsinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında "Naxçıvan" Sərhəd Diviziyası yaradılıb, 2015-ci ildə Sərhəd Diviziyası "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına çevrilib. Bununla da, muxtar respublikanın sərhədlərinin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoyub. Son illər müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilib, maddi-texniki baza gücləndirilib, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb, şəxsi heyətin peşəkarlığı artırılıb.

Avqustun 22-də "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 25-ci ildönümü qeyd olunub.

Ali Məclisin Sədri "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 25-ci ildönümü münasibətilə şəxsi heyəti təbrik edib, sərhədçi ailələri ilə görüşüb.

Kəskin kontinental iqlimə malik olan Naxçıvanda payız-qış mövsümünə hazırlıq da daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvanın bütün yaşayış məntəqələri elektrik enerjisi və təbii qazla tam təchiz olunub. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin balansında olan 8 elektrik stansiyasından 7-si son 20 ildə istismara verilib. Bu stansiyalar vasitəsilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatı ödənilir.

Görülmüş etibarlı tədbirlərlə yanaşı, muxtar respublikada payız-qış mövsümünə hazırlıq işləri hələ isti yay aylarından başlanır, payız-qış mövsümünə hazırlıqla bağlı konkret hədəflər müəyyənləşdirilir, bununla bağlı müvafiq tapşırıqlar verilir.

Avqustun 26-da Naxçıvan Muxtar Respublikasında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.

Müşavirədə payız-qış mövsümündə nəqliyyatda hərəkətin təhlükəsizliyinin təmin edilməsi, yaşayış obyektlərinin, səhiyyə, təhsil, mədəniyyət və digər müəssisələrin istiliklə təminatı, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükü, muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan ehtiyatların, eləcə də sərhəd zonalarındakı hərbi hissələrin yanacaqla təchizatı və ərzaq ehtiyatının yaradılması və digər mühüm məsələlərlə əlaqədar konkret tapşırıqlar verilib.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. Avqustun 28-də komitənin yeni inzibati binasının istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib, binada yaradılan şəraitlə tanış olub, istehsal müəssisələrində və xidmət sahələrində maarifləndirmə və izahat işlərinin davam etdirilməsi, səmərələşdirici təkliflərin hazırlanması və patentlərin verilməsi sahəsində fəaliyyətin təşkili ilə bağlı tapşırıqlar verib, qarşıya qoyulan vəzifələrin icrasında komitə əməkdaşlarına uğurlar arzulayıb.

On ikinci əsrin görkəmli siyasətçisi Nizamül-mülk deyirdi: *"Xalqın iradəsi ilə rəhbərin dühası birləşdikdə ölkə möhkəmlənər, gündən-günə inkişaf edər".* Biz bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda bunun canlı şahidi oluruq. Bugünkü Naxçıvan inkişaf və sabitlik dövrünü yaşayır. Düşmənlərimiz bu diyarı blokada vəziyyətində saxlasa da, dünyadan təcrid etməyə çalışsa da, heç vaxt kataklizmlər burulğanına yuvarlada bilməyib. İnkişaf, tərəqqi yolunda inamla irəliləyən, müstəqillik ideallarımızın mənbəyi, ərazi bütövlüyü uğrunda mübarizəmizin simvolu olan Naxçıvan təhlükəli niyyətləri birdəfəlik dəf etməyə qadir olduğunu göstərib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini ulu öndər qoymuşdur... Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz".***

Rauf KƏNGƏRLİ

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



*Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilən tapşırıqların icrası ilə bağlı sentyabrın 7-də nazirlikdə iclas keçirilib.*

Tədbiri nazir Cavid Səfərov açaraq bildirib ki, müşavirədə nazirliyin tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin təminatının diqqət mərkəzində saxlanması, qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlərin görülməsi və hərbi hissələr üçün yun corabların toxunması işinin bu il də davam etdirilməsi istiqamətində tapşırıqlar verilibdir.

Nazir çıxışında vurğulayıb ki, 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Ahıllar Evinin və bərpa mərkəzlərinin təminatına diqqət artırılmış, hərbi hissələr üçün yun corab və şərf toxunulması məqsədilə sağlamlıq imkanları məhdud 23 şəxslə müqavilə bağlanmış və onlar tərəfindən toxunmuş 3 min cüt yun corab və 700 yun şərf hərbi hissələrə təhvil verilmişdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxanaların istismarı üçün ixtisaslı kadrların hazırlanması məqsədilə təşkil olunan qazanxana maşinisti, elektrik montyoru və qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşə kurslarını, ümumilikdə, 261 nəfər bitirmişdir. Bununla yanaşı, Fövqəladə Hallar Nazirliyi ilə birlikdə qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən 277 müəssisənin 554 qazanxana işçisi üçün maarifləndirmə işi aparılmışdır. Qarşıdan gələn mövsümü mütəşəkkilliklə başa vurmaq üçün nazirlik tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir.

Sonra nazirliyin Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsinin müdiri Elçin Novruzov, Dövlət Məşğulluq Xidmətinin rəisi Vüsal Süleymanlı, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi Samir Seyidov və Ahıllar Evinin direktoru Ülviyyə Quliyeva payız-qış mövsümünə hazırlıqla bağlı məlumat veriblər.

İclasa əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov yekun vurub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində də payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub. İclası giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov deyib ki, avqust ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Dövlət Gömrük Komitəsinə Fövqəladə Hallar Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi, bununla əlaqədar istehlakçıların və sahibkarların əvvəlcədən məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Asəf Məmmədov qeyd edib ki, qanunvericiliyə əsasən elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına malın üzərində istifadə qaydalarına dair Azərbaycan dilində təlimat və standartlara uyğunluqla bağlı xarici sertifikat tələb olunmaqla, həmçinin standartlara uyğunluğu yoxlanılmaqla icazə verilir.

Tədbirdə çıxış edən komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhat Həbibbəyli müşavirədə verilmiş tapşırıqların icrasının təmin olunması ilə əlaqədar görüləcək işlərdən danışıb. Vurğulayıb ki, aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə reydlərin təşkili, istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, kütləvi informasiya vasitələrində maarifləndirici materialların hazırlanması nəzərdə tutulub.

Sonra iclasın gündəliyində duran məsələlərlə bağlı tabeli gömrük orqanlarının rəislərinin çıxışları olub.

Gömrük orqanlarında payız-qış mövsümünə hazırlıqla bağlı işlərin qısa vaxtda başa çatdırılması və komitədə yaradılmış müvafiq komissiya tərəfindən hazırlıq işlərinin yerindəcə yoxlanılması qərara alınıb.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov yekun vurub.

* * *

Naxçıvan Beynəlxalq Hava Limanında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə həsr olunmuş tədbiri hava limanının direktoru Mənşur Gülməmmədli açıb. Qeyd olunub ki, 2017-ci il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Beynəlxalq Hava Limanının qarşısında da bir sıra tapşırıqlar qoyulub. Verilən tapşırıqların icrası istiqamətində ardıcıl işlər aparılır.

Belə ki, muxtar respublikada havaların soyuq keçməsi ilə əlaqədar hava limanında qazanxana kompleksinə hazırlıq işləri, kanalizasiya, su xətlərinin yoxlanması, aerovağzal kompleksi, inzibati və yardımçı binalarda istilik sistemlərinin saz vəziyyətə gətirilməsi üzrə tədbirlər həyata keçirilir.



Hava gəmilərinin buzlaşmaya qarşı emalı prosesinin aparılması üçün xüsusi mayelərin, nəqliyyat vasitələrinin ehtiyat hissələrinin sifarişləri verilib. Bakı şəhərindən "AzalOil" Yanacaq-Sürtkü Materialları İdarəsindən müəssisəyə təyyarə yanacağı daşınması davam edir. Oktyabr ayı ərzində isə dizel və benzin yanacağı daşınmasına başlanılacaqdır.

Qeyd olunub ki, aviasiya və uçuşların təhlükəsizliyinin, reyslərin müntəzəmliyinin, qrafik üzrə hərəkətinin təmin olunması üçün aerodromun daim saz saxlanılması ən vacib amildir. Uçuş-enmə zolağının qardan və buzdan təmizlənməsinin norma və qaydalara uyğun təşkil olunması, aerodrom xidmətinin təlimatında nəzərdə tutulan təmizləmə metodlarının əsas götürülməsi, açıq və örtülü drenaj xətlərinin yoxlanması daim diqqət mərkəzində saxlanılır. Aerodromda hərəkət edən maşın və mexanizmlərin sazlığı, təyinatı üzrə normal istifadə qaydaları, teleskopik trapların soyuq havalarda düzgün istismarının təmin olunması, qartəmizləmə metodunun təşkili payız-qış mövsümünə hazırlıqla əlaqədar tədbirlər planına daxil edilib. Bundan əlavə, ayrı-ayrı xidmət sahələrinin maddi-texniki bazaları möhkəmləndirilib, həmin sahələrin lazımi texniki avadanlıq və ehtiyat hissələri ilə təmin olunması üzrə işlər aparılır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Tədbirə Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli yekun vurub.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında səhiyyə naziri Niyazi Novruzov məruzə edib.*



Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə aid nazirliklər və təşkilatlara tapşırıqlar verilib. Verilən tapşırıqlarla əlaqədar nazirlikdə tədbirlər planı hazırlanıb. Nazirliyə tabe olan tibb müəssisələrinin qazanxanalarında istilik sisteminin vəziyyəti yoxlanılıb, sistemdə olan nasazlıqların aradan qaldırılmasına başlanılıb. Müəyyənləşdirilib ki, cari qış mövsümündə 228 tibb müəssisəsindən 75-i fərdi, 105-i mərkəzi istilik sistemi ilə, 34-ü neft sobası, 7-si isə təbii qazla qızdırılacaqdır. Xəstəxanalarda elektrik xətlərinin, qaz, su təchizatı, kanalizasiya sistemlərinin, səhiyyə müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edən transformatorların, fərdi istilik sistemi ilə qızdırılan səhiyyə müəssisələrində qızdırıcıların vəziyyəti yoxlanılaraq nasazlıqların aradan qaldırılmasına başlanılıb.

Kollegiya iclasında ucqar dağ kəndlərində həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin qışa hazırlıqla əlaqədar dərman təchizatının yaxşılaşdırılması, şəhər və rayon mərkəzlərində, o cümlədən qəsəbə və kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərmək üçün alınacaq mal-materialların bölgü əsasında tibb müəssisələrinə paylanması üçün konkret vəzifələr müəyyənləşdirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib. Çıxışlarda qeyd olunub ki, 2017-2018-ci illərin payız-qış mövsümündə səhiyyə müəssisələrinin ahəngdar işini təmin etmək məqsədilə görüləcək tədbirlər, onların icrası üçün dəqiq müddət və cavabdeh olan şəxslər müəyyənləşdirilib, qazanxanaların təhlükəsiz işləməsi üçün tapşırıqlar verilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov yekun vurub.

* * *



Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Gənclər və İdman Nazirliyində kollegiya iclası keçirilib. İclası giriş sözü ilə nazir Azad Cabbarov açaraq nazirlik tərəfindən payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrdən danışıb.

Bildirilib ki, nazirliyin strukturuna daxil olan idarə və müəssisələrin – idman obyektlərinin, olimpiya-idman komplekslərinin, uşaq-gənclər idman məktəblərinin payız-qış mövsümünə hazırlığı ilə bağlı verilmiş tapşırıqlara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan müəssisələrin qazanxanalarında elektrik və istilik sistemi xətlərinin vəziyyəti yoxlanılıb. İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Şərur Olimpiya-İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu, İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbi və Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində payız-qış mövsümündə gənclərin idmanla müntəzəm məşğul olması və kütləvi idman tədbirlərinin keçirilməsi üçün istilik, elektrik sistemi və su təchizatına nəzarət gücləndiriləcək. Həmçinin idman müəssisələrində yoluxucu xəstəliklərə qarşı dezinfeksiya işlərinin aparılması və idmançıların tibbi müayinədən keçirilməsi işləri nəzarətdə saxlanılacaq. Bundan başqa, payız-qış mövsümündə elektrik enerjisi, qaz, rabitə və digər xidmətlərdən düzgün istifadə olunması, israfçılığa yol verilməməsi təmin ediləcək.

Vurğulanıb ki, payız-qış mövsümünə hazırlığın əsas məsələsi kimi nazirliyin və onun strukturuna daxil olan təşkilatların yerləşdiyi inzibati binaların mühafizəsinə ciddi nəzarət olunmalıdır.

Rayon (şəhər) gənclər və idman idarələri yeniyetmə və gənclərin payız-qış mövsümündə də idmanla müntəzəm məşğul olmaları, idman yarışlarında iştirakı üçün yaradılmış şəraitdən düzgün istifadə etməlidirlər. Kütləvi informasiya vasitələri ilə əlaqələr daim diqqət mərkəzində olmalı, keçirilən bütün tədbirlərin televiziya, qəzet və sosial şəbəkələrdə işıqlandırılması təmin edilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub. Kollegiyanın qərar layihəsi oxunub və qəbul edilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub.

* * *

"Naxçıvanqaz" İstehsalat Birliyində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclasda birliyin direktoru Ramin İsmayılov çıxış edərək bildirib ki, yeni mövsümə hazırlıq işləri çərçivəsində qaz təchizatı sisteminə texniki baxış yekunlaşdırılacaq, mövcud nasazlıqların aşkar edilərək aradan qaldırılması üçün müvafiq tədbirlər görüləcək. Eyni zamanda qaz şəbəkəsində istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsinə diqqət yetiriləcək. Qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görüləcək, təbii qazdan qanunsuz istifadə hallarına yol verməmək üçün nəzarət gücləndiriləcək.

Bildirilib ki, payız-qış mövsümündə təbii qazdan istifadə edən bütün obyektlərin, qazişlədici cihazların vaxtında sınaqdan keçirilməsi diqqət mərkəzindədir. Hüquqi və fiziki şəxslərdən daxil olan müraciətlərə əsasən ev, mənzil və qeyri-yaşayış obyektlərinin qazlaşdırılması işləri başa çatdırılacaq. Qaz şəbəkəsində yeri dəyişdirilməsi və yenidən çəkilməsi nəzərdə tutulan qaz xətləri üzrə işlərin həyata keçirilməsinə nəzarət gücləndiriləcək. Yeni qaz xətləri çəkilərkən və ya



bərpa işləri aparılarkən mövcud standartların tələblərinin gözlənilməsi diqqətdə saxlanılacaqdır.

Ramin İsmayılov deyib ki, payız-qış mövsümünə hazırlıq məqsədilə görüləcək işlər sırasında təbii qazın şaxtalı hava şəraitində nəqli üçün işlərin vaxtında başa çatdırılması, qaz qızdırıcılarının yoxlanılması, qazın fasiləsiz nəqlinin təmin olunması, qış aylarında maşın-mexanizmlərin texniki cəhətdən saz işləməsinin mütəmadi nəzarətdə saxlanılması da vardır. Əlavə olaraq qış mövsümü başlayanadək işçilərə müvafiq geyim və avadanlıqlar veriləcək, qazın təzyiqinin qeydiyyatının aparılması texnoloji rejimə uyğun olaraq nəzarətdə saxlanılacaqdır. Qarşıdan gələn mövsümə qədər sayğacdankənar istifadə hallarının qarşısının alınması üçün tədbirlər davam etdiriləcək, təbii qaz istehlakçıları ilə maarifləndirmə işi, yerlərdə reydlər aparılacaq, ortaya çıxan nöqsan və çatışmazlıqların vaxtında aşkarlanıb aradan qaldırılması təmin olunacaqdır.

Sonra məruzə ətrafında Naxçıvan Şəhər Qaz İstismar İdarəsinin rəisi Orxan Rüstəmovun, Culfa Rayon Qaz İstismar İdarəsinin rəis əvəzi Allahverdi Əliyevin, Kəngərli Rayon Qaz İstismar İdarəsinin rəisi Qurban Məmmədovun çıxışları olub.

İclasa "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Ramin İsmayılov yekun vurub.

**Xəbərlər şöbəsi**

## Tarix və müasirliyin, mədəniyyət və ticarətin qovuşduğu məkan

# Şahtaxtı



***(Əvvəli qəzetin 8 avqust 2017-ci il tarixli nömrəsində)***

***...Bu kənd Şərqlə Qərb arasında mühüm rol oynayan Böyük İpək Yolu üzərində yerləşir. Bir zamanlar yüklə dolu dəvə karvanlarının keçidinə şahidlik edən bu yurd yeri indi beynəlxalq yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinin hərəkət etdiyi mühüm dəhlizə çevrilib. İstər çar Rusiyası dövründə, istərsə də Sovetlər Birliyi zamanında kəndin adı mühüm strateji keçid məntəqəsi kimi çox sənədlərdə öz əksini tapıb. Ötən yazıda Azərbaycanın ən məşhur kəndlərindən biri olan Şahtaxtı haqqında məlumat versək də, əsas mövzumuz buradakı yaşı yüzdən çox olan tarixi yaşayış evləri barədə olmuşdu. Eyni zamanda kənddəki məhəllə adlarından, çoxsaylı sututarları olan göllərdən bəhs etmişdik. Bu yazıda da Şahtaxtının keçmişindən və bu günündən söhbət açacağıq. Ancaq gəlin əvvəlcə bu qədim yurdun tarixi keçmişinə qısa ekskurs edək.***

### *Şahtaxtı – tarixin daş yaddaşı*

Şahtaxtı Azərbaycanın, eləcə də Naxçıvanın ən qədim yaşayış məskənlərindən biridir. Bir ucu Araz çayına dayanan və "Qarahasar" deyilən böyük qala divarlarının əhatəsində yerləşmiş bu qədim yaşayış məskəni ilk dəfə 1936-cı ildə arxeoloq Ələsgər Ələkbərov tərəfindən arxeoloji tədqiqatlara cəlb olunub və burada aşkar olunan maddi-mədəniyyət nümunələri ərazinin qədim və zəngin tarixə malik olduğunu təsdiq edib. Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biri olan Şahtaxtı eramızdan əvvəl II minillikdə ətrafı möhkəmləndirilmiş bir yaşayış yerinə çevrilib, Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin əsas istehsal ocaqlarından biri olub. Bizim eradan əvvəl III-I minilliyə aid Şahtaxtı Govur qalası isə Son Tunc – İlk Dəmir dövrlərinə aid edilir. Hazırda qalıqları mühafizə olunan qala divarları, güman ki, bir zamanlar yadelli hücumlardan müdafiə məqsədilə tikilib. Təəssüf ki, bu qala divarları, hələ geniş tədqiqatlara cəlb edilməyib və onun haqqında əlavə fikirlər səsləndirmək imkanımız yoxdur.

"Şahtaxtı" toponimi ilə bağlı fərqli mülahizələr mövcuddur. (Ötən yazıda bu haqda məlumat vermişdik). Vaxtilə "Qarahasar", sonralar "Şahtaxtı" adlandırılan bu yurd yeri ilə bağlı da bir çox rəvayətlər var. Onlardan daha çox üzərində dayanılan isə budur ki, bu ad kəndə Azərbaycan Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətainin 1501-ci ildə Təbrizdə taxta çıxmasından sonra verilib. Bildirilir ki, Şirvanı ələ keçirən İsmayıl, Ağqoyunlu hökmdarı Əlvənd Mirzənin Naxçıvana 30 min nəfərlik qoşunla yürüş etdiyi xəbərini alır və dərhal özünün 7 minlik seçmə qızılbaş süvarisiylə Naxçıvan istiqamətinə hərəkət edir. İndiki Şahtaxtıya yaxın yerdə "Şərur düzü"ndə qarşılaşan Səfəvilər özlərindən 4 dəfə artıq olan ağqoyunlulara qalib gəlirlər və bununla da, qızılbaşların Təbrizə yolu açılır. 1501-ci ilin payızında Arazı keçərək Təbrizi tutan qızılbaşlar İsmayılı taxta çıxararaq onu şah elan edir və bununla da, Azərbaycan Səfəvi dövlətinin əsasını qoyurlar. Şahtaxtıda əsrlərdir dildən-dilə keçən bir rəvayətə görə, Şah İsmayıl Şirvandan Naxçıvana gələndə və "Şərur düzü"ndəki qələbəsindən sonra Şahtaxtının kənarında indi "İydəli pir" adlandırılan, əsasən, iydə ağaclarından ibarət meşəlikdə düşərgə salmış və buna görə də kənd sonralar "Şahı taxta çıxaran yer" – "Şahtaxtı" adlandırılmışdır…

### *İydəli pir: sufilər məskəni, müqəddəs ocaq*

Şahtaxtılıların uzaq keçmişdən üzübəri ziyarət etdikləri İydəli pir indiyədək müqəddəs ziyarətgah kimi tanınır. Hələ Sovetlər Birliyi dövründən kənd camaatı, eləcə də Şərur rayonunun müxtəlif kəndlərindən gələnlər burada qurban kəsib, niyyət edərmişlər. Rəvayətlərə görə, bu müqəddəs məkan bir zamanlar sufi şeyxlərinin yaşadığı yer olub. Elmi mənbələrdə rast gəlinməsə də, qeyd etdiyimiz kimi, Şah İsmayılın İydəli pirdə gecələməsi haqqında məlumatlar da yerli əhali arasında geniş yayılıb.

Şahtaxtı haqqında yazı hazırlayarkən elə bu kənddən olan həmkarımız Anar Qasımovla bu müqəddəs məkana baş çəkməyi də unutmadıq. Pirin olduğu yer kənddən, təxminən, 2 kilometr uzaqlıqda yerləşir. O qədər də böyük olmayan qayalıqlardan ibarət mağaranı xatırladan bu sığınacaqda 3-4 nəfər yağışdan, küləkdən qoruna bilər. Bu yer həmişə şahtaxtılıların, eləcə də digər kəndlərdən bura gələnlərin qəlbində böyük inam bəslədiyi bir ziyarətgah kimi tanınır. Hansısa niyyəti həyata keçən kəslər bu yerə gəlir, qurban kəsər, yerdən xırda daşları götürərək qayalığa vurarlarmış. Daş qayalığa yapışarmışsa, həmin adamda niyyətinin qəbul olunacağına böyük inam yaranarmış. Ziyarətə gələnlər burada şam da yandırarmışlar. Mağaranın qaralmış divarlarından da bunu aydın görmək mümkündür. İydəli pirin yerləşdiyi ərazi isə, sözün həqiqi mənasında, çox möhtəşəmdir...

Pirin ətrafında xeyli əkin sahələri var. Vaxtilə çox sayda iydə ağaclarının olduğu deyilən ərazidə az da olsa, yenə də ağaclar qalır, əsasən də söyüd ağacları. Deyilənlərə görə, burada həm də xeyli sayda kəhrizlər var imiş. Hətta onların sayının on iki olduğunu söyləyirlər. Ancaq biz onlardan yalnız onunu saya bildik. Araz çayı istiqamətində axan bu kəhrizlərin suyu indi azalsa da, hazırda bu sulardan ətrafdakı əkin sahələrini suvarmaq üçün istifadə olunur. Şair Firudin Süleymanov deyişkən:

*Arazla qol-boyun olan kəhrizlər*
*Doğma diyarından üzülüb gedir.*
*Sanki uzaqlara, qərib ellərə*
*Yorğun karvan kimi düzülüb gedir.*

Ərazidə vaxtilə çox sayda göllər də olub. İndi isə onların altısından istifadə edilir, yəni bu qədərinə su axır. Vaxtilə məşhur Şah bağı da burada yerləşirmiş. Bağda yetişən meyvələrin dadı-tamı ətraf mahallara da yayılıbmış. Xüsusilə burada yetişən əriklərin dadından doymaq olmurmuş, çox şirin imiş, saplağından şirəsi axarmış. Seyid Zamin Mirnəziroğlu bu mənzərəni belə vəsf edir:

*Əriklər yetişmiş, şəhdi axırmış,*
*Görənlər yemirmiş, durub baxırmış.*

### *Böyük şəxsiyyətlər yetirən Şahtaxtı müasir yurd yeridir*

Orta əsrlər dövründə ticarətin, sənətkarlığın, mədəniyyətin mərkəzinə çevrilən Şahtaxtı, həm də elmə, təhsilə böyük önəm verilən yaşayış məskəni kimi tanınıb. Şahtaxtı kəndi Azərbaycan xalqına Behbud ağa Şahtaxtinski, Əbülfət Şahtaxtinski, Məhəmməd ağa Şahtaxtinski, Adilə Şahtaxtinskaya, Elmira Şahtaxtinskaya, Zərifə xanım Əliyeva, Həbibulla Şahtaxtinski, Həmid ağa Şahtaxtinski, İsasultan Şahtaxtinski, Toğrul Şahtaxtinski və digər bu kimi görkəmli şəxsiyyətlər bəxş edib. Şahtaxtıda elmə, təhsilə, məktəb işinə hələ keçmiş zamanlardan böyük önəm verilib. Mənim üçün maraqlı məqamlardan biri də burada ilk məktəbin nə zaman yaradılması idi. Əvvəllər eşitmişdim ki, kənddə müxtəlif dövrlərdə və müxtəlif ünvanlarda məktəb fəaliyyət göstərib. Seyid Zamin Mirnəziroğlu bildirir ki, kənddə ilk məktəb 1888-ci ildə yaradılıb. Belə ki, Şahtaxtinskilər nəslinin görkəmli nümayəndəsi Məhəmməd ağa Şahtaxtinski hələ gənc yaşlarından təhsilə, maarifə böyük maraq göstərib. O, doğulduğu Şahtaxtı kəndində dövlət məktəbinin açılması üçün çoxlu səylər edib.

1888-ci ildə Rusiya Daxili İşlər Nazirliyində çalışarkən İrəvan quberniyasının Xalq Məktəbləri müdirinə müraciət edərək Şahtaxtı kəndində dövlət məktəbinin açılmasını tələb edib. Onun tələbi maliyyə çətinliyi bəhanəsi ilə rədd edilib. Niyyətində qəti olan Məhəmməd ağa maliyyə yardımı üçün o zaman Qarsda komendant işləyən yaxın qohumu Əbülfət ağa Şahtaxtinskiyə müraciət edib və onun köməkliyi ilə 1888-ci ilin oktyabrında doğulduğu kənddə ikisinifli Zemstvo dövlət məktəbi açmağa nail olub. Bu faktı ağsaqqal ziyalı, Şahtaxtı kəndindən olan və hazırda Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Naxçıvan Şəhər Təşkilatının sədri vəzifəsində işləyən Firudin Süleymanov da təsdiqləyir. Firudin müəllim deyir ki, kənddə yeni məktəb tikilməsi maliyyə vəsaiti tələb etdiyindən bu təhsil ocağı kənd evlərinin birində təşkil olunur. Bu evi isə tədris ocağı kimi təmənnasız bağışlayan dövrünün ağıllı, savadlı qadınlarından biri olan Əsgər ağanın həyat yoldaşı Bədir xanım idi. Əsgər ağanın o zaman Araz çayı üzərindəki keçid məntəqəsinin yaxınlığında, eləcə də kənd meydanında dükanları varmış. Eyni zamanda İrəvan şəhərinin ətrafında da hektarlarla torpaq sahələrinə malik imiş. Sonralar Bədir xanım uşaqları ilə birlikdə Naxçıvan şəhərinə köçmüş və burada dünyasını dəyişmişdir. O zaman çar Rusiyası zabitlərinin uşaqlarının və yerli sakinlərin övladlarının təhsil aldığı məktəbin ilk direktoru isə Naxçıvan şəhər sakini, Qori Müəllimlər Seminariyasında Cəlil Məmmədquluzadə ilə bir yerdə oxumuş Əbülqasım Sultanov olur. Seyid Zamin Mirnəziroğlunun bildirdiyinə görə, kənddəki bu məktəb həmin dövrdə Naxçıvanda fəaliyyət göstərən 16 məktəbdən biri olub. Kənddə olarkən ikiillik Zemstvo məktəbinin yerləşdiyi evlə də maraqlandıq. Kəndə ilk səfərimizdə bununla bağlı fərqli məlumatlar aldıq. Məsələ burasındadır ki, İbrahim ağa Şahtaxtinskinin həyat yoldaşı Zivər xanım da, təxminən, 1919-1920-ci illərdə evini məktəb üçün səlahiyyətli orqanlara bağışlamışdı. Bu məlumatı bizimlə bölüşən Firudin Süleymanov özü də ilk təhsilini məhz həmin məktəbdə aldığını deyir. Bundan əlavə, Firudin müəllim İbrahim ağa Şahtaxtinskinin bacısı Tovuz xanımın da yaşadığı evin məktəb üçün istifadəyə verildiyini bizə bildirir. Bu evlərin məktəb kimi istifadə olunması ayrı-ayrı illərə təsadüf etsə də, araşdırmaya ehtiyacı olan məsələlərdən biri bu məktəblərin niyə eyni deyil, fərqli evlərdə fəaliyyət göstərməsidir. Kənddəki ilk məktəbin məhz hansı evdə yerləşdiyi haqqında bilgiləri isə yenə də Firudin Süleymanovdan aldıq. Onun dediyinə görə, həmin ev hazırda kənddəki köhnə məscidin (Araza baxan istiqamətdə) sol tərəfində yerləşən evdir. Qeyd edək ki, hazırda bu evdə heç kim yaşamır, ancaq köhnə tikililərdən biri kimi əhəmiyyətini qoruyub saxlayır.

Şahtaxtı kəndi SSRİ dövründə həm də burada istismar olunan travertin yataqlarına görə tanınıb. XX əsrin 60-70-ci illərində Naxçıvanda istehsal olunan travertinin şöhrəti bütün SSRİ miqyasında geniş yayılıb. Naxçıvan MSSR-in 50 illik yubileyi ilə əlaqədar nəşr olunmuş kitabda bu sətirləri oxuyuruq: "Yalnız respublikamızın deyil, Sovet İttifaqının bir sıra nəhəng tikililərində Naxçıvanın Şahtaxtı travertinindən geniş istifadə olunur. Ulyanovsk şəhərindəki Memorial Kompleks, Moskva Dövlət Universitetinin binası, Kremlin Qurultaylar sarayı, Moskvadakı Naməlum əsgərin qəbri, Ostankino televiziya mərkəzinin, Qarşılıqlı İqtisadi Yardım Şurasının binası, Moskvadakı "Rossiya" mehmanxanası və bir çox başqa tikintilərin bəzək işlərində Şahtaxtı travertinindən istifadə edilmişdir".



Müstəqilliyimizin bərpasından sonrakı dövrdə Şahtaxtı kəndi də özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Sovetlər Birliyinin süqutundan sonra İran İslam Respublikası ilə əlaqələrin inkişaf etdirilməsində burada salınmış körpü mühüm rol oynayıb. Xatırladaq ki, Şahtaxtı-Poldəşt körpüsünün tikilməsi məsələsini ilk dəfə ümummilli lider Heydər Əliyev 1992-ci ilin mayında, İranın Qərbi Azərbaycan Vilayətindən Naxçıvana rəsmi səfərə gəlmiş nümayəndə heyəti qarşısında qaldırmışdır. 1992-ci ilin avqustunda ümummilli liderin İrana etdiyi rəsmi səfəri zamanı imzalanan əməkdaşlıq protokolunda Şahtaxtı-Poldəşt müvəqqəti körpüsünün tikilməsi ayrıca bənd kimi öz əksini tapmışdır. Həmin protokolun icrası istiqamətində konkret tədbirlər görülmüş, 1992-ci ilin dekabrında körpünün açılışı olmuşdur. Daha sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin yanvarında İran İslam Respublikasına rəsmi səfəri zamanı Şahtaxtı-Poldəşt körpüsünün tikintisi barədə razılıq əldə olunmuş, həmin körpü 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. Həmin ilin avqustunda Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında Memorandum" imzalanmışdır. 22 oktyabr 2009-cu il tarixdə Şahtaxtı Gömrük İdarəsinin inzibati binası da daxil olmaqla, ümumilikdə, Şahtaxtı sərhəd-keçid kompleksi istifadəyə verilmişdir. Müasir körpünün salınması və sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi məntəqənin buraxılış imkanlarını artırmış, nəqliyyat vasitələrinin hərəkətinə lazımi şərait yaratmışdır.

Muxtar respublikamızın əksər kənd yaşayış məntəqələrində olduğu kimi, Şahtaxtı kəndində də kompleks quruculuq işləri aparılmışdır. Hər şeydən əvvəl, kəndin tanınmış şəxsiyyətlər yetirdiyi Şahtaxtinskilər nəslinin Azərbaycan xalqı qarşısında xidmətləri nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə burada Şahtaxtinskilərin ev-muzeyi yaradılmış, elə həmin ilin may ayının 13-də muzeyin açılışı olmuşdur. Şahtaxtinskilər nəslinin davamçılarından olan və hazırda Fransada yaşayan Aleksis Şahtaxtinski də açılış mərasimində iştirak etmiş, görülən işlərə görə minnətdarlığını bildirmiş və burada olduğundan qürur hissi keçirdiyini dilə gətirmişdir. Yeri düşmüşkən, adıçəkilən muzey cari ildə yenidən əsaslı şəkildə təmir olunmuşdur. Yenə də 2010-cu ilin dekabr ayında kənddə yeni sosial obyektlər – kənd mərkəzi, həkim ambulatoriyası, ticarət mərkəzi, Qıvraq qəsəbəsi ilə kəndi, eyni zamanda gömrük məntəqəsini birləşdirən 5 kilometr uzunluğunda yol yenidən qurularaq istifadəyə verilmişdir.

***Şahtaxtı kəndi muxtar respublikamızın qədim və maraqlı tarixə, mühüm strateji əraziyə malik yurd yerlərindən biridir. Yüzillər boyu karvan ticarətinə şahidlik etmiş, mədəni və iqtisadi əlaqələrin inkişafına böyük töhfə vermiş bu kənd tarixi missiyasını bu gün də uğurla davam etdirir. Fərqli olan isə bu tarixilik üzərində müasirliyin təntənəsidir.***

✍ Səbuhi HƏSƏNOV

# Uşaqları məktəbə hazırlamaq valideyn və müəllimlərdən böyük məsuliyyət tələb edir

***Hər bir valideyn övladı üçün gözəl gələcək arzulayır, həmin arzuların reallaşması naminə səylə çalışır, hər şey övladının könlüncə olsun deyə əlindən gələnin ən yaxşısını etməyə can atır. Uşağın qidalanması, geyim-keçimi, əyləncəsi, istifadə etdiyi əşyalar və daha nələr-nələr... Ən yaxşısı, ən keyfiyyətlisi, ən qeyri-adisi, ən fərqlisi və sair. Söhbət təhsildən getdikdə valideynin qayğısı, məsuliyyəti daha da artır.***

Yeni dərs ilinin başlanmasına sayılı günlər qalır. Hər il olduğu kimi, bu dəfə də şagirdlər həyəcanlı, valideynlərsə qayğılıdır. Dərs ləvazimatları, məktəbli formaları, çantalar və adını sadalamadığımız digər zəruri əşyaların alınması üçün valideynlər səylə çalışırlar ki, övladları tam hazırlıqlı olaraq məktəbə yollansınlar. Bəs bu ehtiyacları təmin etməklə yanaşı, uşaqlarımızı psixoloji baxımdan məktəbə necə hazırlayırıq?

Azyaşlılar, xüsusən ibtidai sinif şagirdləri arasındakı münasibətdə məktəbli ləvazimatlarının fərqli (bahalı, rəngarəng olması və sair) olması onların davranışına, eyni zamanda psixologiyasına çox təsir edir. Belə fərq məktəblərdə geyimlər arasında aradan qaldırılsa da, məktəb ləvazimatları üçün keçərli deyil. Məktəbli yarmarkasında olarkən bəzi valideynlərin fikirləri ürəkaçan olmasa da, həmin fikirləri sizlərlə bölüşmək istərdim. Onlar düşünürlər ki, bahalı və dəbdəbəli ləvazimatlar həm keyfiyyətli olur, şagirdi yarı yolda qoymur, həm də uşağı yazıb-oxumağa daha da həvəsləndirir. Lakin düşünməliyik ki, kiçik bir qələm uşaqlar arasında, sözün mənfi mənasında, həsəd hissi yaradır və ən əsası onların diqqətini dərsdən yayındırır. Şagird üçün keyfiyyətli, amma standart ləvazimat almaq – sadə qələm, dəftər və xətkeş həm onun fikrinin yayınmasının qarşısını alır, həm də dostları ilə münasibətinin gərginləşməsinə imkan vermir. Valideyn hökmən bahalı və keyfiyyətli ləvazimata üz tutarsa, mümkün qədər ən sadə və dəbdəbədən uzağını seçməlidir. Məncə, bu cür seçim valideynlərin övladları üçün atacağı müsbət addımlardan olar.

Qayıdaq yuxarıda qeyd etdiyimiz sualımızın cavabına. Bu sualı biz yox, psixoloq Şahnaz Məmmədova cavablandırır. O qeyd edir ki, yeni tədris ilinin başlanması valideynləri qayğılandırır, şagirdləri isə bəzən sevindirir, bəzən həyəcanlandırır, bəzən isə qorxudur. Bəzilərinə isə dərslərin başlanması məyusluq hissi yaşadır. Bu, təbii haldır. Yay tətili günlərini saatlarla vaxtını televizor qarşısında oturmaq, kompüterlə məşğul olmaq, gəzmək, oynamaq, səhərlər gec oyanmaq kimi gündəlik vərdişlərlə keçirən uşaqlar, təbii ki, qayğı, məsuliyyət tələb edən məktəb həyatının başlanmasından məyus olacaqlar.



Xüsusilə məktəbə yeni qədəm qoyacaq birinci sinif şagirdlərinin psixoloji hazırlığı mürəkkəbdir. Bu dövrdə uşağın ictimai münasibətləri, həyat tərzi dəyişir, psixoemosional yükü artır, oyun fəaliyyəti təlim fəaliyyəti ilə əvəz olunur, qarmaqarışıq bir mühitə düşür, artıq valideynlərdən uzaqda sərbəst yeni dünyaya qapı açır. Onlar indiyə qədər alışmadıqları sosial mühitə daxil olurlar. İlk məktəb, ilk dərs, sinif otaqları, ilk müəllim və ilk addımlar... Artıq onlar əllərindəki oyuncağı yerə qoyub, qələm tutmağı öyrənirlər. Daha məsuliyyətli, qayğılı bir həyata atılırlar. Yuxudan istədiyi vaxt oyanan uşaq daha erkən saatlarda oyanmalı, saatlarla oyuncaqları ilə oynamaq əvəzinə 45 dəqiqə ərzində məktəb nizam-intizamına tabe olmaqla müəllimini dinləməli, onlar üçün çətin proses olan düzgün yazmağı öyrənməlidir. Üstəlik, belə gündəlik rejimdə valideynləri onların yanında olmayacaq. Müəllimi isə eyni zamanda 20, hətta daha çox uşağa diqqət göstərdiyi üçün valideynləri kimi onun nazını çəkə bilməyəcək. Təbii ki, bu kimi dəyişikliklərə uşaqların əksəriyyəti uğurla adaptasiya ola bilmir və müəyyən narahatlıqlar yaranır. Belə gərgin tempə tab gətirə bilməyən uşaq mənasız ağlamalarla və ya məktəbə getmək istəməməklə öz etirazını bildirir. Bu zaman məktəb fobiyası üzə çıxır – valideynlər uşaqlarda ürəkbulanması, qızdırma və bu kimi digər hallarla qarşılaşırlar. Onlar bunun ya bəhanə olduğunu düşünüb övladını məcburən məktəbə ağlaya-ağlaya göndərir, ya da həkimə göstərərək sağlamlığında problem olduğu qənaətinə gəlirlər. Bu çətin dönəmlərdə uşaqların psixoloji durumu, təəssüf ki, bəzi valideynlərin heç yadına düşmür.

Ancaq bunu da qeyd etmək istərdim ki, məktəbə yeni başlayan bütün uşaqlarda belə hallar baş vermir. Məsələn, elə uşaqlar var ki, məktəbə gedəcəyi günü sevinc və səbirsizliklə gözləyir, çünki məktəbin onlara sosial status – məktəbli statusu verdiyini düşünürlər. Bu isə ailədə uşaqlara göstərilən psixoloji münasibətdən və məktəbəqədər təhsildən çox asılıdır. Məktəbə hazırlıq mərhələsinin də uşaqların məktəbə adaptasiyasında böyük rolu var. Həmin uşaqlar məktəb şəraitinə tez uyğunlaşır, yoldaşları ilə ünsiyyət qura bilir, müəllimlərlə asanlıqla dil tapırlar. Hazırlıq mərhələsini keçən uşaqlar sakit davranışları, xoş əhval-ruhiyyədə olmaları ilə də seçilirlər. Təlim prosesi digər uşaqlardan fərqli olaraq onlar üçün daha asan keçir, dərs tapşırıqlarını, məktəbin tələb və qaydalarını çox asanlıqla mənimsəyirlər.

Bəs məktəbə çətin adaptasiya olan uşaqlarda aqressiv, emosional halların baş verməməsi üçün nə etmək lazımdır? Şahnaz Məmmədova deyir ki, valideynlər uşaqları məktəbə gətirməzdən əvvəl onları psixoloji olaraq hazırlamalı, məktəb haqqında ilk məlumatları verməlidirlər. Məktəbə getməyin nə üçün lazım olduğunu başa salmaqla uşaqlara kömək etməlidirlər. Oxumağın onun üçün çox faydalı və gərəkli olduğuna inandırmalıdırlar. Həmin uşaqlarla məktəb mövzusunda darıxdırıcı olmamaq şərtilə tez-tez söhbətlər aparılmalıdır. Nə üçün oxumaq lazımdır və məktəb qaydalarına nə üçün əməl edilməlidir? kimi məsələlər uşağın anlayacağı şəkildə ona başa salınmalıdır.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Mahir Babayev bizimlə söhbətində qeyd etdi ki, uşaqların məktəbə adaptasiyasında yalnız valideynlər deyil, məktəbin, müəllimlərin də böyük rolu var. Müəllimlər həmin uşaqlara diferensial yanaşmağı bacarmalı, onlara doğma münasibət göstərməlidirlər. Çünki belə olmasa, onların məktəbi sevmələri çətin olar. Sevindirici haldır ki, artıq 2016-cı ildən muxtar respublikamızın bəzi təhsil ocaqlarında məktəbə hazırlıq qrupları fəaliyyətə başlayıb. Artıq bu qruplarda hazırlıq prosesinə cəlb olunan uşaqlar ibtidai sinfə gedən zaman digərlərindən çox fərqlənir. Çünki həmin müddətdə uşaqlarda təhsil alacağı məktəb, sinifləri haqqında əvvəlcədən kifayət qədər təsəvvür formalaşır, onlar dərs deyəcək müəllimlərlə ünsiyyətdə olur, yəni bir növ mühüm adaptasiya dövrü keçirlər. Bu mənada, hazırlıq qrupları şagirdlərin məktəbə hazırlanması baxımından böyük əhəmiyyət daşıyır.

Bəli, uşaqların məktəbə hazırlıq dövrü hər bir valideyndən, müəllimlərdən böyük məsuliyyət tələb edir. Çünki bu dövr azyaşlılarda məktəbə, təhsilə, ümumilikdə isə oxumağa həvəs oyatmaq baxımından çox məsuliyyətli dövrdür. Gəldiyimiz qənaət bundan ibarətdir ki, uşaqlarımızın məktəbə hazırlığında hər birimiz diqqətli olmalı, bu işə maksimum vaxt sərf etməklə onların təhsil yollarında atacaqları ilk addımları düzgün qiymətləndirməliyik.

**✍ Gülcamal TAHİROVA**

## Xatirə Muzeyində növbəti seminar-treninq keçirilib

***Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbir Naxçıvan şəhərindəki Xatirə Muzeyində olub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, ötən ildən başlayaraq keçirilən seminar-treninqlər səmərəli olub. Belə tədbirlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltmək, onların qədim diyarımızın bütün bölgələrində yerləşən muzeylərlə tanış olmasına şərait yaratmaqdır. Seminar-treninqlər muxtar respublikanın müxtəlif bölgələrindəki muzeylərdə də keçirilir.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra Xatirə Muzeyində muzey bələdçisinin təqdimatında Azərbaycan və ingilis dillərində ekspozisiyaya baxış olub.

Sonda ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 259960 | 31085 | 31190 | 100,3 |
| 2. | Ordubad rayonu | 399986 | 46937 | 47043 | 100,2 |
| 3. | Babək rayonu | 630360 | 85482 | 85596 | 100,1 |
| 4. | Culfa rayonu | 330015 | 42412 | 42446 | 100,1 |
| 5. | Şərur rayonu | 645688 | 77943 | 77993 | 100,1 |
| 6. | Kəngərli rayonu | 238893 | 30100 | 30116 | 100,1 |
| 7. | Sədərək rayonu | 78903 | 8701 | 8703 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 810399 | 98243 | 98253 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 1701794 | 340239 | 409498 | 120,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **5095998** | **761142** | **830838** | **109,2** |

*Replika*

## Şəhərimizdə fəaliyyət göstərən ictimai iaşə obyektlərində sanitar-gigiyenik qaydalara nə dərəcədə əməl olunur?

***İctimai iaşə fəaliyyəti bütün zamanlarda gəlirli sahələrdən olub. Məhz buna görə də müasir dövrümüzdə də bu sahəyə maraq kifayət qədər böyükdür. Əhali gəlirlərinin artması həmin sahənin inkişafına təsir edən əsas amillərdəndir. İctimai iaşə obyektləri dedikdə, əsasən, restoran, kafe, yeməkxana, bərbərxana, gözəllik salonu və sair nəzərdə tutulur. Muxtar respublikamızda bu sahədə son illər xeyli irəliləyişlər var, yeni ictimai iaşə obyektlərinin sayı hər il artır.***

Bəs ictimai iaşə obyekti hansı tələblərə cavab verməlidir? Həmin obyektlər, ilk növbədə, restoran və yeməkxanalar ərzaq məhsullarını lazımi şəraitdə saxlamaq üçün soyuducu və digər zəruri avadanlıqlarla təchiz edilməlidir. Həmçinin bu məkanlarda müştərilərə yüksək səviyyədə xidmət göstərmək və rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlar da olmalıdır. Xidmət zalında temperaturun tənzimlənməsi məqsədilə optimal havalandırma sistemi qurulmalı, məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin olunmasına daim nəzarət edilməlidir. Ən əsası da gigiyenik qaydalara ciddi əməl olunmalıdır.

Hamıya məlumdur ki, qida məhsullarından gigiyenik tələblər gözlənilmədən xörəklər hazırlandıqda kütləvi qida zəhərlənmələri baş verir ki, belə zəhərlənmələr də çox vaxt ölümlə nəticələnir. Bu cür xoşagəlməz hallara, əsasən, yay aylarında rast gəlindiyi üçün restoran, kafe, yeməkxana və sair iaşə müəssisələrində çalışan şəxslər xüsusilə bu vaxtlar nəzarəti gücləndirməli, ərzaq məhsullarının alınması, saxlanma, daşınma, emal, hazır xörəklərin istifadə müddətlərini dəqiq bilməli, şəxsi gigiyena qaydalarına əməl etməlidirlər.

Ancaq bu gün bəzi ictimai iaşə obyektlərində sanitar-gigiyenik qaydalara əməl olunması ilə bağlı bir sıra nöqsanlara yol verilir ki, bu da insanların sağlamlığı üçün çox təhlükəlidir. Bundan başqa, qidaların saxlanma və yeməklərin bişirilmə qaydaları ilə bəzi hallarda diqqəti mənfi mənada çəkən hallarla da qarşılaşmaq olur. Doğrudur, bu gün əlaqədar dövlət qurumları bu halların aradan qaldırılması üçün bir sıra tədbirlər həyata keçirirlər, ancaq təəssüf ki, bəzən bu tədbirlər nəticəsiz qalır.

Digər bir məsələ istehlakçıların məsələyə necə yanaşmasıdır. Çünki bu sahədə istehlakçıların da maarifləndirilməsi vacibdir. Əgər bir istehlakçı üz tutduğu ictimai iaşə müəssisəsində ödədiyi məbləğ qarşılığında nələri tələb etmək lazım olduğu haqda məlumatlı olarsa, onda bu, ümumilikdə, bu sahədə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılmasına gətirib çıxarar. Bəzən elə hallar da olur ki, istehlakçı üz tutduğu obyektdə sanitar-gigiyenik qaydalarla bağlı ciddi pozuntular olduğunu görsə də, iradını müəssisənin rəhbərinə bildirmir, əksər hallarda həmin məkanı başqası ilə əvəz etməklə kifayətlənir. Ancaq bu işdə vətəndaş həssaslığı göstərilməli, məndən ötən daş kimə dəyirsə-dəysin prinsipi ilə hərəkət edilməməlidir. Bax elə o zaman fərd şəklində yox, ümumi halda bu sahədə vəziyyətin tamamilə dəyişilməsinə nail ola bilərik.

**✍ Nail ƏSGƏROV**


### İtmişdir

Nağıyev Ceyhun Teymur oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Həsən Bəhlul oğlunun adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 707